Azərbaycan.- 2021.- 30 mart. S. 9.



# Fermerlərə dövlət dəstəyi davam edir

Dünyanı bürüyən koronavirus pandemiyası Azərbaycanda da bir çox sahələrdə istehsalın həcminin azalmasına səbəb olmuşdur. Lakin bu azalma aqrar sektorda baş verməmişdir, əksinə, bir sıra sahələr üzrə məhsul istehsalında artım müşahidə edilmişdir.

Cari ildə də fermerlər yüksək məhsul götürmək üçün səylə çalışırlar. Dövlət də həmişə olduğu kimi aqrar sektorda fəaliyyət göstərən sahibkarlara, fermerlərə dəstək verir. Son məlumata görə, artıq 22 min fermer payızlıq əkinə görə dövlətdən subsidiya alıb. Aqrar Kredit və İnkişaf Agentliyindən verilən məlumatda bildirilir ki, ümumilikdə 335 min nəfərdən artıq fermer Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində 2020-ci il üzrə payızlıq əkinlərini bəyan edib. Fermerlərin əkin bəyanları təlimatlara uyğun olaraq yoxlanıldıqca subsidiya ödənişləri həyata keçirilir.

Subsidiya qaydalarına uyğun olaraq, fermerlər kartlarına köçürülən vəsaitin 25 faizini nağdlaşdıra bilərlər. Qaldı subsidiyanın nağdlaşdırılmayan hissəsinə, onlar bu vəsaitlə gübrə, pestisid, toxum və ting təchizatçılarından təsərrüfatlarına lazım olan məhsulları POS-terminal vasitəsilə ödəniş etməklə əldə edə bilərlər. Subsidiya qaydalarında edilmiş son dəyişikliyə görə isə, fermerlər təsərrüfatları üçün gübrənin tam dəyərini nağdsız ödəmək imkanı qazanıblar.

Onu da qeyd edək ki, "Aqrar Tədarük və Təchizat" ASC kənd təsərrüfatı məhsullarının ixracının təşviqi istiqamətində fermerlər arasında maarifləndirmə tədbirləri keçirir. Təlim formatında keçirilən tədbirlərə 5 hektardan artıq torpaq sahəsinə malik, tərəvəz əkini və ya bağçılıqla məşğul olan fermerlər cəlb olunur. Məqsəd isə fermerləri kənd təsərrüfatı məhsullarının ixracı prosesi barədə məlumatlandırmaq, onların bu istiqamətdə bilik və bacarıqlarını inkişaf etdirməkdir.

Bu günədək Qax, Quba, Xaçmaz, Şəmkir, Lənkəran və Göyçay rayonlarında keçirilən təlimlərdə ətraf rayonlar da daxil olmaqla ümumilikdə 54 fermer iştirak edib. Onlara məhsul ixracı prosesinin təşkili, bu sahəyə dair qanunvericilik, xarici ölkələrdə idxal olunan kənd təsərrüfatı məhsulları ilə bağlı müəyyən edilmiş standartlar, logistika işinin təşkili və s. mövzular barədə ətraflı məlumatlar verilib.

Bu gün əkin mövsümü ilə əlaqədar "Aqroservis" ASC tərəfindən rayon bölmələrindən uzaq məsafədə yerləşən kənd və qəsəbələrdə mövsümi mineral gübrələrin səyyar satışına başlanıb. Fermerlərin gübrələrə olan tələbatını vaxtında ödəmək üçün "Aqroservis" ASC anbarları mövsümi mineral gübrələrlə tam təchiz edib. ASC fermerlərin işini asanlaşdırmaq məqsədilə martın 15-dən etibarən bütün ölkəni əhatə etməklə çoxşaxəli səyyar satış xidmətləri də həyata keçirir. Gün ərzində 10-dan çox istiqamətdə səyyar satış xidmətləri təşkil olunur.

Aqrar sahədə aqrotexniki qulluq işlərinin mövsümə uyğun, vaxtında və operativ həyata keçirilməsi məqsədilə "Aqroservis" ASC gücləndirilmiş iş rejiminə keçib. Belə ki, fermerlər şənbə və bazar günləri də daxil olmaqla "Aqroservis" ASC-nin istənilən rayon bölməsinə yaxınlaşaraq heç bir əlavə sənəd və vəsait ödəmədən mineral gübrə əldə edə bilirlər.

Qeyd edək ki, "Aqroservis" ASC mineral gübrələrə olan tələbatın ödənilməsi ilə yanaşı, rayon bölmələrində olan texnikalar vasitəsilə fermerlərə aldıqları gübrələrin istifadəsində aqrotexniki xidmətlər də göstərir.

Sözsüz ki, bu cür səyyar xidmət gübrələrin alışı və istifadəsi zamanı əlavə vaxt və vəsait itkisinin qarşısını alır ki, bu da sonda məhsul istehsalının artmasına gətirib çıxarır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***